# Hərbi marşların tarixdən gələn səsi

**Musiqinin insana güc verməsi, damarlarında axan qanı coşdurub düşmən üzərinə aparması, qələbəyə ruhlandırması yaxın keçmişimizin söhbəti deyil. Tarixin saralmış səhifələrini vərəqlədikcə görürük ki, ötən əsrlərdə döyüş sirlərinə az-çox vaqif olan sərkərdələr də əsgərlərini düşmən üzərinə vətənpərvərlik mahnılarının sədaları altında göndərirmişlər.**



Əgər bu hərbi marş və mahnılar daim döyüşçülərin qanlarını coşdurub qəlblərini riqqətə gətirməsəydi, babalarımız onları yaratmazdılar, qanlı savaşlardan əvvəl insana güc verən marşları səsləndirməzdilər. Deməli, müharibənin hər üzünü görmüş təcrübəli sərkərdələr hərbi marşlara əsgərlərinə cəsarət və igidlik aşılayan, qələbəni təmin edən vacib mənəvi amillərdən biri kimi baxmışlar. Buna görə də döyüş ərəfəsində yeri-göyü yerindən oynadan marş və mahnıları səsləndirərək, əsgərlərini qələbəyə ruhlandırmışdılar.

Böyük maraqla tamaşa etdiyimiz tarixi filmlərdə biz belə səhnələri çox seyr etmişik: döyüş zamanı musiqi ilə silah qoşa qanad kimi birləşəndə düşmən daha asan məhv edilir, uğur tez qazanılır. Qəlbləri riqqətə gətirən marş sədaları yağı üzərinə gedən əsgərləri uğurlara səsləyir, zəfərlərə qovuşdurur. Musiqi sədalarından güc alan döyüşçülər doğma yurdu azad edərək xalqına qələbə sevinci yaşadırlar.

Tez-tez dinlədiyimiz marş və mahnılar qəlbimizə açılan sirli-sehirli qapıya bənzəyir. Tarixin pozulmayan, daim parlaq qalan aynası göstərir ki, ərənlərimiz hərbi marş və mahnıların gücünü, onun əsgərə ruh verib qələbəyə kökləyən ritmini çox gözəl duyublar, onun məğlubedilməzliyini dərindən hiss ediblər. Musiqi ritmlərində gizlənən gücün incəliklərini aşkarlayıb, onun sirlərlə dolu möcüzəli qapısına elə möcüzəli də açar tapıblar. Buna görə də qələbəni itkisiz və asan qazanıblar.

Böyük Nizami Gəncəvi "İsgəndərnamə" poemasında döyüşlərdən əvvəl əsgərləri vəcdə gətirən mahnı və marşların ifa edilməsini böyük məharətlə təsvir edir. Dahi ustadın əsərlərində də mahnı və marşların əsgərlərə necə güclü təsir göstərdiyini aydın görürük. Şeypurlardan çıxan səsləri aslan nərəsinə bənzədən böyük Nizami yazır:

*Şeypurlar qoparır aslan nərəsi,*
*Dimağı doyurur neyin nəfəsi.*
*Türk nayı qopardı elə bir şivən,*
*İgidlər coşaraq qopdu yerindən.*

Əsərin yazıldığı zamandan səkkiz əsrdən çox vaxt keçməsinə baxmayaraq, təkcə hərbi marş və mahnılar deyil, elə bu misralar da oxucu qəlbini riqqətə gətirir. Çünki musiqi ilə bərabər, elə bu misralar da vətənin müdafiəsində dayanan əsgərləri qalibiyyətə səsləyir. Ta qədimlərdən həmişə belə olub: dahiyanə şəkildə yazılmış sözlər, bəstələnmiş musiqilər təravətini, məna çalarlarını, hikmət yükünü heç vaxt itirməyib.

Zamanlara qalib gələn dəyərli fikirlər, musiqilər yenə də dünəndən-bugünümüzə boylanmaqdadır.

Ölməz şairin yazdığı bu misraları oxuduqca gözlərimiz önündə qanlı döyüşlər, geniş çöllərdə üz-üzə dayanmış qoşunlar və bu gün muzeylərdə gördüyümüz ox-la, qılıncla, əmudla, nizə ilə silahlanmış əsgərlər canlanır. Səkkiz əsr əvvəl yazılmış böyük əsərdən nümunə gətirdiyimiz kiçik parçalar bu gün yenə də bizə güc-qüvvət verib düşmən üzərində zəfərə ruhlandırır. Döyüşdən əvvəl musiqi dinləyən əsgər yalnız qələbə barədə düşünür, nəyin bahasına olursa-olsun yağıları məhv edib uğur qazanmağa çalışır.

Dəfələrlə şahidi olmuşuq ki, mahnı və marşları dinləyən əsgərlərin baxışından cəsarət yağır, qəhrəmanlıq süzülür. Bu anlarda onlar özlərini həm fiziki, həm də mənəvi cəhətdən güclü və yenilməz hiss edirlər. Bax, budur hərbi marş və mahnıların yenilməz gücü, insan qəlbindəki qüdrət və təntənəsi! Musiqi döyüşçülərə güc verərək onları uğurlara səsləyir, düşmən üzərinə daha da cəsarətlə şığımağa həvəsləndirir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsinin davam etdiyi günlərdə, Qarabağın azadlığı uğrunda döyüşlərin səngimədiyi çağlarda da sözlə musiqi birləşərək əsgərlərimizə mənəvi güc verirdi, qələbəmizi, zəfərimizi yaxınlaşdırırdı. İkinci Qarabağ müharibəsində ön xətdə olarkən Xalq artisti Nurəddin Mehdixanlının hərbi marş və mahnıların müşayiəti, qəlbləri riqqətə gətirən səsi ilə oxuduğu şeirlər zabit və əsgərlərimizin döyüş ovqatını artırırdı. Həm hərbi marş və mahnılardan, həm də ürəklərində cövlan edən vətənpərvərlik hisslərindən güc alan döyüşçülərimiz Vətən müharibəsində erməni qəsbkarları üzərində zəfər çalaraq 30 ilə yaxın davam edən işğala son qoydular.

***Vahid MƏMMƏDQULUOĞLU,***
***"Azərbaycan"***

azerbaijan-news.az